**GÜLARƏ MƏMMƏDLİ**
**Bakı Slavyan Universiteti**
**Bakı şəhəri, S.Rüstəm 33**
**gulara@mail.ru**

# İSMAYIL ŞIXLI NƏSRİ MÜASİR TƏHLİLDƏ

**Xülasə**

İsmayıl Şıxlı XX əsr Azərbaycan ədəbiyyatında "Ayrılan yollar", "Dəli Kür" "Ölən dünyam" kimi möhtəşəm romanların müəllifidir. Eyni zamanda yazıçı çoxsaylı elmi, tənqidi, publisistik məqalələr yazmışdır. Həmin məqalələr ədəbiyyatın müxtəlif problemlərinə həsr olunmuşdur.

Müasir dövrümüzdə İsmayıl Şıxlının əsərlərinin yenidən araşdırılmasına, təhlil olunmasına böyük ehtiyyac vardır. Çünki yazıçının əsərləri ideoloji təsirlərə az məruz qalmışdır. Bu mənada yazıçı ustalığına, məharətinə təəccüblənməmək olmaz. İsmayıl Şıxlı hər bir əsərində yenilikçidir, novatordur. Yazıçının təsvir etdiyi obrazlar millidirlər, koloritlidirlər.

Onlar təkrar olunmazdırlar. Hər birinin ədəbiyyat tarixində müstəsna yeri vardır. Məqalədə məhz yuxarıda göstərilən problemlərin araşdırılması nəzərdə tutulmuşdur. Yazıçının gələcək yaradıcılıq yolunu məhz bu roman müəyyənləşdirmişdir.

Düzdür, "Dəli Kür" romanının onun yaradıcılığında müstəsna yeri və rolu vardır. Bu fikri ədəbi tənqid də dönə- dönə vurğulamışdır. "Ayrılan yollar" romanının ilk hissələri əvvəlcə "Azərbaycan" jurnalında, sonra isə ayrıca kitab şəklində çap olunmuşdur. İsmayıl Şıxlı ilk əvvəl fəhlə və kəndlilərin həyatından iri həcmli oçerk yazmağı planlaşdırırdı. Lakin sonradan fikrini dəyişdi. "Ayrılan yollar" romanı haqqında Mirzə İbrahimov və Mehdi Hüseyn dəyərli fikirlər söylədilər və əsəri 50-ci illər Azərbaycan nəsrinin böyük uğuru kimi dəyərləndirdilər.

***Açar sözlər:*** *İsmayıl Şıxlı, nəsr, təhlil, müasir.*

İsmayıl Şıxlı XX əsr Azərbaycan ədəbiyyatında "Ayrılan yollar", "Dəli Kür", "Ölüləri qəbirstanlıqda basdırın", "Ölən dünyam" kimi möhtəşəm əsərlərin müəllifidir. Yazıçının hər bir əsəri XX əsr Azərbaycan ədəbiyyatında mühüm bir mərhələni təşkil edir.

İsmayıl Şıxlı sovet dövründə ideoloji təsirlərdən yan keçə bilmiş, əsrlərin sınağından çıxa biləcək əsərlər yaratmışdır. Müasir tədrisin əsas vəzifələrindən biri İsmayıl Şıxlının əsərlərini milli mənlik, həqiqət, düzlük, doğruluq kimi meyarlardan çıxış edərək araşdırmaqdır.

İsmayıl Şıxlının ilk iri həcmli əsəri "Ayrılan yollar" romanıdır. Yazıçının gələcək yaradıcılıq yolunu məhz bu roman müəyyənləşdirmişdir.

Düzdür, "Dəli Kür" romanının onun yaradıcılığında müstəsna yeri və rolu vardır. Bu fikri ədəbi tənqid də dönə- dönə vurğulamışdır. "Ayrılan yollar" romanının ilk hissələri əvvəlcə "Azərbaycan" jurnalında, sonra isə ayrıca kitab şəklində çap olunmuşdur. İsmayıl Şıxlı ilk əvvəl fəhlə və kəndlilərin həyatından iri həcmli oçerk yazmağı planlaşdırırdı. Lakin sonradan fikrini dəyişdi. "Ayrılan yollar" romanı haqqında Mirzə İbrahimov və Mehdi Hüseyn dəyərli fikirlər söylədilər və əsəri 50-ci illər Azərbaycan nəsrinin böyük uğuru kimi dəyərləndirdilər.

"Ayrılan yollar" romanında XX əsrin 40-50-ci illərindəki Azərbaycan kəndi təsvir olunmuşdur. Ancaq yazıçı 20-30-cu illərə qısaca da olsa ekskurs etməyi qarşısına məqsəd qoymuşdur və fikrimizcə buna tam şəkildə nail olmuşdur. İsmayıl Şıxlının qənaətinə görə Azərbaycan kəndində 50-60-cı və daha sonrakı illərdə baş verən sosial bəlaların kökünü müharibədən əvvəlki dövrlərdə- kollektivləşmə siyasətində axtarmaq lazımdır.

Yazıçı müxtəlif illərdə dərc etdirdiyi məqalələrdə yuxarıdakı fikri dönə- dönə vurğulayırdı. "Ayrılan yollar"  romanında şərin, əyriliyin, oğurluğun, kolxozu talan etməyin, kəndin həqiqi zəhmətkeşlərini, əmək adamlarını əzməyin "mücəssəməsi" hesab edilən kolxoz sədri Qurban

Kosaoğlunu uzun müddət rəhbər vəzifədə işləməsi, yerini möhkəmlədib qalması təsadüfi ola bilməzdi. XX əsr Azərbaycan kəndinin Xudayar bəyi, Qurbanəli bəyi- Qurban Kosaoğlu cəzasızlıq mühitində yaşayıb işləmişdi.

Qurban Kosaoğlu kimilər tək deyildilər. Cəzasızlıq, nəzarətsizlik, özbaşınalıq mühitində onlar "yağışdan sonra bitən göbələklər kimi çoxalmışdılar". İsmayıl Şıxlının ustalığı və yazıçı kimi böyüklüyü ondan ibarətdir ki, o, Azərbaycan kəndini, eyni zamanda cəmiyyətini narahat edən problemləri qələmə almışdır. Fikrimizcə, ali və orta məktəblərdə ədəbiyyatın tədrisi zamanı yuxarıda göstərilən məqamlara xüsusi diqqət yetirilməlidir. Yeni tədris metodlarından və üsullarından istifadə məhz bunları nəzərdə tutur.

"Ayrılan yollar" romanında Qurban Kosaoğlunun etdiyi hərəkətləri, cinayətləri təsadüfi hesab etmək düzgün olmazdı. Qurban Kosaoğlunun keçmişi ləkəlidir.

Müharibədə sol qolunu qəsdən yaralamış, döyüş yoldaşlarını dar ayaqda qoymuş, "qəhrəman", dezertir kimi evlərinə qayıtmışdı. Məsələnin üstü açılanda həyat yoldaşı Sayalının qarşısında diz çökmüş, onu balalarının başına çevirməyi, güllələnməkdən qurtarmağı xahiş etmişdi.

Sayalının "kimlərisə görməsi" nəticəsində Kosaoğlu hərbi tribunaldan, güllələnməkdən canını qurtarmışdı. Kəndə, evlərinə qayıtdı. Əvvəlcə briqadir, sonra isə kolxoz sədri seçildi. İlk zamanlar hamıya yaxşılıq etdi. Əsgər ailələrinə xüsusi qayğı ilə yanaşdı. Qorxurdu ki, onun özünü qəsdən yaraladığını yuxarılara xəbər verərlər. Kosaoğlu yavaş- yavaş rayon rəhbərlərindən özünə dost tutmağa başladı. Müharibə illərində kişilərin əksəriyyəti cəbhəyə getmişdi. Çoxları müharibədən qayıtmadı. Qısa zaman kəsiyində Qurban Kosaoğlu kolxozun hesabına etdiyi "hörmətin", "yaxşılıqların" sayəsində çoxlarının and yeri oldu.

Beləliklə, dünənki dezertir bügünün "qəhrəmanına" çevrildi. Kosaoğlunun həyat yoldaşı Sayalı "özünün və ərinin keçmişini" tamamilə unutmuşdu. Kənddə "yeni ağalara" müqavimət göstərən, hüquqlarını tələb edən insanların müqavimətini amansızcasına qırır, onları cəzalandırır, təhqir edirdilər.

Nəsib kişinin və aqranomluğu yenicə qurtarmış İmranın kəndə gəlməsi "kəndin şəriksiz ağasının"- Qurban Kosaoğlunun kürkünə birə saldı. Nəsib kişinin, İmranın, Zeynəbin gərgin və inadlı mübarizəsi nəticəsində Kosaoğlu tutduğu vəzifədən uzaqlaşdırıldı, xalqa zidd əməlləri ifşa olundu. Doğrudan da İsmayıl Şıxlının "Ayrılan yollar" romanı, dövrü, zamanı qabaqlayan əsərdir. Fikrimizcə, yazıçının hər bir əsəri yenidən təhlil olunmağa, araşdırılmağa layiqdir. Müasir dövrdə ədəbiyyatın tədrisi zamanı bütün bu deyilənlərin nəzərə alınması vacibdir...

İsmayıl Şıxlının ikinci iri həcmli əsəri "Dəli Kür" romanıdır. Yazıçı roman üzərində təxminən on il işləmişdir. Əsərin ayrı- ayrı hissələri əvvəlcə "Azərbaycan" jurnalında çap olunmuşdur. "Dəli Kür" romanı dərhal tənqidçilərin və ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Bir faktı vurğulamaq lazımdır ki, "Dəli Kür" romanı haqqında ədəbi mübahisələr və mülahizələr bu gün də davam edir.

Bəzi tənqidçilər və alimlər "Dəli Kür" romanını Azərbaycan bəylərinin və bəyliyinin süquta uğramasının səbəbləri haqqında əsər hsab edirdilər. Əlbəttə, bu fikrin tamamilə yalnış olduğunu söyləmək düzgün deyildir. Digər tərəfdən Azərbaycan bəyliyinin süquta uğraması səbəbləri Nəcəf bəy Vəzirovun "Müsibəti- Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", və Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları", "Qurbanəli bəy" və digər yazıçıların əsərlərində aydın şəkildə göstərilmişdir. Fikrimizcə, İsmayıl Şıxlının "Dəli Kür" romanı daha geniş və əhatəli problemləri əks etdirmişdir. Eyni zamanda "Dəli Kür" romanı XIX əsr Azərbaycan həyatının ensiklopediyasıdır.

Əsər dünya ədəbiyyatının nadir incilərindən olan L.Tolstoyun "Hərb və sülh", M. Şoloxovun "Sakit Don", M. Auezovun "Abay", Ə. Nurpeisovun "Qan və tər" romanları ilə bir sırada dayanır. Romanın obrazlar silsiləsi zəngin və koloritlidir. Cahandar ağa, Zərnigar, Şamxal, Əşrəf, rus Əhməd və digərləri əhəmiyyətli dərəcədə fərqlənirlər, seçilirlər. İsmayıl Şıxlının "Dəli Kür" romanındakı təbiət təsvirləri ana yurdun, doğma Azərbaycanın füsunkar, əsrarəngiz gözəllikləri haqqında nağıldır, əfsanədir, balladadır. Romanın dili Azərbaycan dilinin zənginliklərini, üstünlüklərini özündə ehtiva edir. Ona görə də İsmayıl Şıxlının "Dəli Kür" romanı müasir tədris və

təlim metodlarına ən çox uyğun gələn əsərlərdəndir. Bu mənada roman hələ də öz tədqiqatçılarını gözləyir. Başqa sözlə desək, "Dəli Kür" romanı keşmişin, bugünün və gələcəyin əsəridir...

"Əsər iki baş qəhrəmanının – Cahandar ağanın və Kür çayının xarakterindəki yaxınlıqda, səsləşmədə daha aydın duymaq olar, hər iki surət mühitin səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir, qələmə alınan həyat tərzinin koloritinin təcəssümünə çevrilir" (3, s.143-144).

"Tragik pafos "Dəli Kür" romanında qəhrəmanların duyğu və düşüncələrinin geniş şəkildə ifadəsini şərtləndirən amillərdən biridir" (5, s.17).

"Ölən dünyam" romanı İsmayıl Şıxlının son əsəridir. Roman 1995- ci ildə yazılmışdır. Yazıçı müxtəlif səbəblərdən "Cəbhə gündəliyi", "Ayrılan yollar", "Dəli Kür" əsərlərində deyə bilmədiklərini "Ölən dünyam" romanında qələmə almışdır. Bəlkə də "Ölən dünyam" romanı yazıçının gələcək nəsillərə ağsaqqal məsləhəti, mənəvi vəsiyyətidir.

XX əsr Azərbaycan ədəbiyyatında heç bir əsəri xalqın tarixi keçmişi, faciəvi taleyi "Ölən dünyam" romanında olduğu qədər dəqiqliklə, geniş və əhatəli şəkildə əks etdirilməmişdir. Həm də əsər cəmiyyətdə baş verən siyasi hadisələr və insanlar haqqında həqiqətlər toplusudur. Doğrudan da İsmayıl Şıxlı bütün dövrlərdə siyasi, ideoloji təzyiqlərə, təhdidlərə baxmayaraq həqiqəti söyləmişdir. Həqiqət isə hər zaman acı olur. Bu mənada bir faktı vurğulamaq yerinə düşər ki, hər üçn əsər bir-biri ilə əlaqəlidir və müəllif mövqeyinin aydınlaşdırılmasına xidmət edir.

"Ölən dünyam" romanı XIX əsri, Müsavat hakimiyyətini və XX əsrin 20- 30- cu illərindəki Azərbaycanda sovet hakimiyyəti uğrunda gedən kəskin, barışmaz mübarizəni əhatə edir.

"Ölən dünyam" əsərində "Ayrılan yollar" və "Dəli Kür" romanlarında olduğu kimi zəngin, koloritli, mürəkkəb obrazlar sistemi vardır.

Ömər koxa Cahandar ağanın, Güllü xanım isə Zərnigar xanımın eynidir.

Digər iki əsərdən fərqli olaraq "Ölən dünyam" romanında yeni sosialist quruluşunun nümayəndələrinin- kommunistlərin obrazı təsvir edilmişdir.

İsmayıl Şıxlı ənənəvi yazıçı kredosuna sadiq qalaraq kommunist surətlərinin təsvirində də bədii və həyat həqiqətlərinə sadiq qalmışdır. Əlbəttə, "Ölən dünyam" romanında yoldaş Fətullayev və keçəl Xondulu obrazlarının təhlilinə geniş yer verilmişdir. Onlar yeni sovet quruluşunun "tipik nümayəndələridir". Fətullayev və keçəl Xondulu heç kimə rəhm etmirlər, hər yerdə gözlərinə "nüzür ünsürlər", "sinfi düşmənlər" görünür.

"Ayrılan yollar" romanında Qurban Kosaoğlunun etdiyi hərəkətləri, cinayətləri təsadüfi hesab etmək düzgün olmazdı. Qurban Kosaoğlunun keçmişi ləkəlidir. Müharibədə sol qolunu qəsdən yaralamış, döyüş yoldaşlarını dar ayaqda qoymuş, "qəhrəman", dezertir kimi evlərinə qayıtmışdı. Məsələnin üstü açılanda həyat yoldaşı Sayalının qarşısında diz çökmüş, onu balalarının başına çevirməyi, güllələnməkdən qurtarmağı xahiş etmişdi.

Sayalının "kimlərisə görməsi" nəticəsində Kosaoğlu hərbi tribunaldan, güllələnməkdən canını qurtarmışdı. Kəndə, evlərinə qayıtdı. Əvvəlcə briqadir, sonra isə kolxoz sədri seçildi. İlk zamanlar hamıya yaxşılıq etdi. Əsgər ailələrinə xüsusi qayğı ilə yanaşdı. Qorxurdu ki, onun özünü qəsdən yaraladığını yuxarılara xəbər verərlər. Kosaoğlu yavaş- yavaş rayon rəhbərlərindən özünə dost tutmağa başladı. Müharibə illərində kişilərin əksəriyyəti cəbhəyə getmişdi. Çoxları müharibədən qayıtmadı. Qısa zaman kəsiyində Qurban Kosaoğlu kolxozun hesabına etdiyi "hörmətin", "yaxşılıqların" sayəsində çoxlarının and yeri oldu.

Bəzi tənqidçilər və alimlər "Dəli Kür" romanını Azərbaycan bəylərinin və bəyliyinin süquta uğramasının səbəbləri haqqında əsər hsab edirdilər. Əlbəttə, bu fikrin tamamilə yalnış olduğunu söyləmək düzgün deyildir. Digər tərəfdən Azərbaycan bəyliyinin süquta uğraması səbəbləri Nəcəf bəy Vəzirovun "Müsibəti- Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", və Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları", "Qurbanəli bəy" və digər yazıçıların əsərlərində aydın şəkildə göstərilmişdir. Fikrimizcə, İsmayıl Şıxlının "Dəli Kür" romanı daha geniş və əhatəli problemləri əks etdirmişdir. Eyni zamanda "Dəli Kür" romanı XIX əsr Azərbaycan həyatının ensiklopediyasıdır.

Beləliklə, dünənki dezertir bugünün "qəhrəmanına" çevrildi. Kosaoğlunun həyat yoldaşı Sayalı "özünün və ərinin keçmişini" tamamilə unutmuşdu. Kənddə "yeni ağalara" müqavimət

göstərən, hüquqlarını tələb edən insanların müqavimətini amansızcasına qırır, onları cəzalandırır, təhqir edirdilər.

Kommunist Kabı Kəsəmənli və qəza firqə (partiya) komitəsinin sədri Abdal kişi də yeni quruluşun insanları xoşbəxt edəcəyinə əmindirlər. Və bu yolda canlarından keçməyə hazırdırlar. Həm də onlar ədalətlidirlər, insaflıdırlar, vicdanlıdırlar. Ən başlıcası isə milli və yerli xüsusiyyətləri nəzərə alırlar. Bilirdilər ki, insanlar bir- birilərinə qırılmaz tellərlə bağlıdırlar. Ucdantutma hamını həbs edib cəzalandırmaq düzgün deyildir.

Fikrimizcə, İsmayıl Şıxlının "Ölən dünyam" romanında kommunist, əqidəli bolşevik Kabı Kəsəmənlinin dili ilə dediyi "əməl var ki, danlarlar, əməl var ki, damlarlar" sözlərində dövrün sərt və acı həqiqətləri "gizlənmişdir". Eyni zamanda bunlar 20- 30- cu illərdə və sonrakı illərdə baş verən qanunsuzluqlara və 37-ci ilin hadisələrinə açar rolunu oynayır.

Bu mənada İsmayıl Şıxlının və digər yazıçıların əsərlərinin yenidən nəzərdən keçirilərək təhlil olunmasında müasir tədrisin rolu əvəzsizdir.

## Ədəbiyyat:


1. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, Elm, 1991, 136 s.
2. İsmayılov Y. İsmayıl Şıxlı. Həyatı, mühiti, sənəti. Bakı: Ayna Mətbu Evi, 1999, 223 s.
3. Hüseynov A. Müxtəliflilyin birliyi. Bakı, Yazıçı, 1983, 250 s.
4. Şıxlı İ. Daim axtarışda. B.: Yazıçı, 1988, 360 s.
5. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Şərq-Qərb, 2005, 400 s.
6. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Şərq-Qərb, 2005, 405 s.


**G.Mammadli**

### Ismail Shikhli's prose and methods of analysis

### Summary


Ismayil Shikhli is the author of great novels such as "Divisible Ways", "Dali Kür", "My Dead World" in the 20th century of Azerbaijani literature.

At the same time, the writer has written numerous scientific, critical, publicist articles. Ismail Shikhli is an innovator. The images depicted by the writer are national and colouring. They are unrepeatable. Each has a unique place in the history of literature. The article examines the above-mentioned problems.

These articles are devoted to various problems of literature. In modern times, there is a great need to re-examine and analyze Ismayil Shikhli's prose. Because the writer's prose was less exposed to ideological influences.

In this sense, we should not be surprised by the skill of the writer. Ismail Shikhli is an innovator. The images depicted by the writer are national and colouring. They are unrepeatable. Each has a unique place in the history of literature.

The article examines the above-mentioned problems. In modern times, there is a great need to re-examine and analyze Ismayil Shikhli's prose. Because the writer's prose was less exposed to ideological influences. In this sense, we should not be surprised by the skill of the writer.


***Keywords:*** *Ismayil Shikhli, prose, analysis, modern*

**Г.Мамедли**

**Проза Исмаила Шихлы в современном анализе**
**Резюме**

Исмаил Шихлы в азербайджанской литературе XX века является автором таких романов, как «Дороги расходятся», «Буйная Кура» и «Мой мир умерший». Одновременно писатель написал множество научных, критических, публицистических статей.

Исмаил Шихлы в каждом новом произведении новатор. Изображенные писателем образы колоритные, национальные. Одновременно они – неповторимые. Каждый их них играет особую роль в истории азербайджанской литературы. В данной статье предусмотрено анализировать вышеназванные проблемы.

Эти статьи посвящены многочисленным проблемам литературы. В настоящее время настала необходимость заново анализировать произведение Исмаила Шихлы. Потому что идеологические воззрения очень мало повлияли на творчество писателя. В этом смысле невозможно не удивляться умению и художественному мастерству писателя.

Исмаил Шихлы в каждом новом произведении новатор. Изображенные писателем образы колоритные, национальные. Одновременно они – неповторимые. Каждый их них играет особую роль в истории азербайджанской литературы. В данной статье предусмотрено анализировать вышеназванные проблемы.

***Ключевые слова:*** *Исмаил Шихли, проза, анализ, модерн.*

Redaksiyaya daxil olma tarixi: 05.04.2019
Çapa qəbul olunma tarixi: 08.05.2019
Filologiya elmləri doktoru, professor Fərəh Cabbar qızı Cəlil tərəfindən çapa tövsiyə olunmuşdur.